Sentyabr 2022

Vergi və hüquq məsələləri üzrə bülletin

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi



# Transfer Qiymətlərinin müəyyən olunması və tətbiqi sahəsində yeniliklər

- Hazırkı buraxılışda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Kollegiyasının qərarı ilə Transfer Qiymətlərinin müəyyən olunması və tətbiqi sahəsində qəbul olunmuş son dəyişiklikləri təqdim edirik.
- Yeniliklər İqtisadiyyat Nazirliyi yanında dövlət Vergi Xidmətinin rəsmiləri tərəfindən ilin sonuna qədər biznes nümayəndələri ilə müxtəlif platformalarda təqdim olunmaqdadır.

## Transfer Qiymətlərinin müəyyən olunması və tətbiqi sahəsində yeniliklər

*21 iyul 2022-ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Kollegiyası "Transfer qiymətlərinin müəyyən olunması və tətbiqi qaydaları"-da bir sıra dəyişikliklərin aparılması barədə qərar (bundan sonra, "**Qərar**") qəbul edib.*

Qərar əsasında tətbiq olunan əsas dəyişikliklər aşağıdakılardır:

1. Məqbul İnterval anlayışı – Nəzarət olunan Əməliyyatlarda tətbiq olunan qiymətlərin qol uzunluğu prinsipinə uyğunluğunun yoxlanılması məqsədi ilə aparılan Müqayisəli Təhlil (bençmark) əsasında müəyyən olunan Məqbul İnterval tapılmış bütün müqayisə oluna bilən əməliyyatların müvafiq göstəricilərinin (qiymət, marja və ya xüsusi çəki) **"iki kvartilarası"** interval kimi müəyyən olunur.
2. Müqayisəli Təhlilin aparılması dövrü – Məqbul İntevalın müəyyən olunması üçün müqayisə oluna bilən məlumatların axtarışı əməliyyatın aparıldığı dövrə və əvvəlki iki il üzrə aparılır. Məqbul İnterval qeyd olunan üç illik orta göstəricilər əsasında qurulur. Məqbul İntervala daxil olan göstəricilər müəyyən olunduqları üç ilin hər biri üçün mövcud olmalıdır.
3. Transfer Qiymətlərinin tətbiqi – Nəzarət olunan Əməliyyatda müəyyən olunan müvafiq göstərici (qiymət, marja və ya xüsusi çəki) Məqbul İntervaldan kanarda olarsa, bu zaman vergilər Məqbul İntervalın Medianı əsasında yenidən hesablanır.

4. Transfer Qiymətlərinin yoxlanılması məqsədləri üçün tələb olunan sənədlər:
    - əməliyyat tərəfləri üzrə maliyyə nəticələri hesabatlar,
    - funksional profillər və əməliyyatın funksional təhlili,
    - qrupun strukturu, əsas biznes strategiyaları və qrupun ümumi fəaliyyəti və iqtisadi nəticələr ilə bağlı bir sıra sənədlər;
    - nəzarət olunan əməliyyatın detalları, təriflərin funksional təhlili, TQ üsulunun seçilməsi, aparılan müqayisəli təhlil ilə bağlı ətraflı məlumat və digər sənədlər.
5. Transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması:
    - Transfer qiymətlərinin əvvəlcədən razılaşdırılması müraciətlərinə baxılması müddətləri vergi orqanları tərəfindən eyni müddətə iki dəfə uzadılma hüququ ilə 30 gün kimi müəyyən edildi.
    - Müraciətlər əməliyyatın başlanmasından əvvəl daxil olmalıdır.
    - Müraciətlərə əsasən alınmış transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması məktubları üç il müddətinə qüvvədə qalır.
    - Transfer qiymətlərinin üsullarının əvvəlcədən razılaşdırılması barədə məktub vergi ödəyicisi tərəfindən əvvəlki dövrlərdə həyata keçirilmiş və vergi yoxlaması ilə əhatə olunmayan eyni əməliyyatlar münasibətdə tətbiq oluna bilər.
    - Hazırkı buraxılışda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Kollegiyasının qərarı ilə Transfer Qiymətlərinin müəyyən olunması və tətbiqi sahəsində qəbul olunmuş son dəyişiklikləri təqdim edirik.
    - Yeniliklər İqtisadiyyat Nazirliyi yanında dövlət Vergi Xidmətinin rəsmiləri tərəfindən ilin sonuna qədər biznes nümayəndələri ilə müxtəlif platformalarda təqdim olunmaqdadır.

Əlaqə üçün:
Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



**Arzu Hacıyeva**
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



**Nəclə Əsədova**
Baş menecer, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
najla.asadova@az.ey.com

## EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilər, əməkdaşlar və bütövlükdə cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılmasına və kapital bazarlarına inamın artırılmasına töhfə verməklə daha yaxşı iş dünyasının qurulmasına çalışır.

EY şirkətinin çoxprofilli komandaları dünyanın 150-dən çox ölkəsində təmsil olunur. İnformasiya və texnologiyalardan istifadə edərək əməkdaşlarımız məlumatların doğruluğunu təsdiq etməklə etimadı təmin edir və müştərilərə fəaliyyətlərini uğurla inkişaf və transformasiya etdirməyə kömək edirlər.

EY şirkətinin audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr sahəsində mütəxəssisləri bu gün dünyamızın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

EY, Qafqaz və Mərkəzi Asiyadan olan şirkətlərlə əməkdaşlıq edir və onlara biznes məqsədlərinə çatmağa köməklik göstərir. Almatı, Bakı, Bişkek, Nur-Sultan, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 8 ofisimizdə 1300-dən çox mütəxəssis çalışır.

© 2022-ci il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. "EY" hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

ey.com/az